# "Qarabağ" tarix yazdı

## Ağdam klubu Avroliqanın 1/8 mərhələsinə yüksəldi




**UEFA Avropa Liqası**
**Pley-off mərhələsinin cavab oyunu**

**"Qarabağ" (Azərbaycan) - "Braqa" (Portuqaliya) - 2:3**

**Qollar:** Rojer Fernandes, 70 (0:1), Alvaro Djalo, 83 (0:1), Mateus Silva, 102 (1:2), Simon Banza, 115-pen. (1:3), Nəriman Axundzadə, 120+2 (2:3)

**Qırmızı vərəqə:** Elvin Cəfərquliyev, 57 ("Qarabağ")

**Baş hakim:** Georgi Kabakov (Bolqarıstan)

**Bakı. Tofiq Bəhramov adına Respublika stadionu**

**İlk oyun - 4:2**

Dünən UEFA Avropa Liqasının pley-off mərhələsinin cavab qarşılaşmasında Ağdamın "Qarabağ" klubu Tofiq Bəhramov adına Respublika stadionunda Portuqaliyanın "Braqa" komandasını qəbul edib. Bir həftə öncə səfərdə oynadığı möhtəşəm futbolla rəqibinə 4:2 hesabı ilə qalib gələn ağdamlıların cavab matçında da bu uğuru təkrarlayacağına inanırdıq. Lakin matçın ikinci hissəsində "Qarabağ"ın futbolçusu Elvin Cəfərquliyevin qırmızı vərəqə alması bütün planları alt-üst etdi. Azlıqda qalan ağdamlılar topu rəqibə verib daha çox müdafiə olunmaq taktikası seçdilər. Nəticədə say üstünlüyü ilə hücumlarının kəsərini artıran "Braqa" iki qol vuraraq görüşün əsas vaxtında qələbə qazandı-2:0.




İki oyunun nəticəsinə əsasən bərabərlik qeydə alındığından hakim qalibi müəyyənləşdirmək üçün 30 dəqiqə əlavə vaxt təyin etdi. Bu vaxtda da tərəflərin vurduqları qollar sayəsində matç "Braqa"nın 3:2 hesablı qalibiyyəti ilə yekunlaşdı.

Portuqaliyada 4:2 hesabı ilə möhtəşəm qələbə qazanan Ağdam təmsilçisi iki oyunun nəticəsinə əsasən adını 1/8-ə yazdırıb. Bununla da ağdamlılar Azərbaycan futbolunda bir ilki gerçəkləşdirdilər.

Futbolda taktika, oyun planı çox önəmli predmetlərdir. Bunlarla yanaşı, əzmkarlıq, ruh yüksəkliyi, qələbə qazanmaq inadkarlığı komandaları qarşılaşmaya daha fərqli motivasiya edir. Məhz dünənki matçda "Qarabağ"ın futbolçularında bunu gördük.

Təbriklər, "Qarabağ"!

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*